BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

№4 ***Humanitar elmlər seriyası*** ***2015***

UOT 930:314

OSMANLI ARXİV SƏNƏDLƏRİ AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ – OSMANLI DÖVLƏTLƏRARASI MÜNASİBƏTLƏRİNİN İLKİN DÖVRÜNÜN ÖYRƏNİLMƏSİNƏ DAİR MƏNBƏ KİMİ

R.Y.QASIMOV
Azərbaycan Respublikası DİN-in Polis Akademiyası
rashadqasimov@rambler.ru

Məqalədə Cənubi Qafqaz Seyminin dağılması, Azərbaycan Xalq Cümhuriyyətinin yaranması və onun Batum konfransı zamanı atdığı ilk diplomatik addımları Osmanlı arxiv materialları əsasında araşdırılmış, Batum müqavilələrinin orijinal və tərcümə nüsxələri müqayisə edilərək onlar arasındakı uyğunsuzluqlar müəyyən olunmuşdur.

Açar sözlər: Seym, Batum müqaviləsi, Osmanlı imperiyası, Azərbaycan Xalq Cümhuriyyəti

Cənubi Qafqazda yaşayan üç xalqın – azərbaycanlılar, gürcülər və ermənilərin təmsil olunduğu Cənubi Qafqaz Seymində mənafelərin və Osmanlı dövlətinə münasibətdə mövqelərin üst-üstə düşməməsi ziddiyyətlərin artmasına gətirib çıxardı. Seymdə azərbaycanlıları təcrid edərək 1918-ci ilin aprelində Osmanlı dövləti ilə müharibəyə başlayan erməni və gürcü fraksiyasının ağır məğlubiyyətə düçar olması son nəticədə Seymi Batumda Osmanlı dövləti ilə sülh danışıqlarını bərpa etmək məcburiyyətində qoydu.

Batum konfransında Osmanlı dövlətinin tələblərinin yer aldığı ultimatuma münasibətdə vahid fikrə gələ bilməyən Seym fraksiyaları arasında fikir ayrılıqları və ziddiyyətlə dərinləşdi. Bu da öz növbəsində, 1918-ci il mayın 26-da Cənubi Qafqaz Seyminin dağılmasına və Gürcüstan, Azərbaycan və Ermənistan respublikalarının yaranmasına gətirib çıxartdı. Osmanlı dövləti 1918-ci il mayın 11-də Cənubi Qafqaz Respublikası ilə başladığı Batum konfransını bu respublikanın dağılması nəticəsində yaranan milli respublikalarla davam etdirməli oldu.

Osmanlı arxivləri ilə paralel olaraq Azərbaycan arxivlərində aparılmış tədqiqat nəticəsində məlum olmuşdur ki, Azərbaycan arxivlərində Azərbaycanın müstəqilliyinin elan edildiyi gündən AXC və Osmanlı dövlətləri arasında

Batum müqaviləsinin bağlandığı günə qədər olan dövrdə Osmanlı-Azərbaycan müzakirələrinin gedişini və müzakirə olunan məsələləri işıqlandıracaq hər hansı bir sənəd və material mövcud deyildir. Azərbaycan Respublikası Dövlət Arxivi və Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Siyasi Sənədlər Arxivinin müxtəlif fondlarında mühafizə olunan sənəd və materiallar elə bir təsəvvür yaradır ki, sanki, Azərbaycan Xalq Cümhuriyyətinin elan edilməsindən sonra Batumda aparılan müzakirələrin gedişində fasilə elan olunmuş və birbaşa 4 iyun müqaviləsi imzalanmışdır. Lakin Osmanlı arxivlərində mühafizə olunan, Batum konfransındakı türk nümayəndə heyətinin rəhbəri Xəlil bəy Menteşə ilə sədrəzəm Tələt paşa və Osmanlı Xarici İşlər Nazirliyi arasında aparılmış gündəlik teleqramlaşmalar Azərbaycan arxivlərində mövcud olan boşluqların doldurması və hər iki dövlətin nümayəndələrinin apardıqları danışıqların obyektiv surətdə işıqlandırılması baxımından müstəsna rol oynayır. Göstərilən teleqramlarda danışıqların bütün detalları, həmçinin bir sıra məsələlərlə bağlı Osmanlı sədrəzəminin göstərişləri öz əksini tapdığından bu sənədlər, Osmanlı dövlətinin Azərbaycanla bağlı siyasətini müəyyən etmək baxımından da mühüm əhəmiyyətə malikdir.

Batum ilə İstanbul arasında gedən intensiv teleqramlaşmalardan anlaşılır ki, bu zaman artıq Osmanlı imperatorluğu ilə Azərbaycan Cümhuriyyəti arasında imzalanacaq müqavilənin mətni hazırlanır, paraflanırdı. Hazırlanmaqda olan bu müqavilə mətninə Azərbaycan nümayəndələri bir sıra düzəlişlər edilməsini təklif etmiş və bu təkliflərini yazılı şəkildə türk heyətinə təqdim etmişlər. Hazırda Başbakanlıq Osmanlı Arxivində Xariciyyə Siyasi Qisim fon kodu altında dosya 2398, gömlək 7, vəraq 56 ünvanında mühafizə olunan bu sənəddə Azərbaycan tərəfinin imzalanacaq Osmanlı-Azərbaycan müqavilə layihəsinə təklif etdiyi düzəlişlər yer almışdır. M.H.Hacınski və M.Ə.Rəsulzadə tərəfindən imzalanan sənəddə, Azərbaycan tərəfi Türkiyənin 11 və 26 may ultimatumlarını qəbul etdiyini bildirir və hazırlanmaqda olan müqavilə layihəsinə 6 düzəlişin olunmasını təklif edir [15]. Azərbaycan tərəfinin düzəliş təklifləri türk nümayəndə heyəti tərəfindən qəbul olunmuş və Osmanlı-Azərbaycan müqavilə layihəsində nəzərə alınmışdır.

Mənbələrdən anlaşılır ki, Batum konfransının ikinci mərhələsində müzakirə olunan əsas məsələlərdən biri də Cənubi Qafqazda erməni dövlətinin yaradılması və ermənilərə dövlət yaratmaq üçün ayrılacaq ərazi məsələsi olmuşdur. Bu məsələ, bir tərəfdən indiki Ermənistan dövlətinin yerləşdiyi ərazilərin əzəli Azərbaycan torpaqları olmasının sübut edilməsi, digər tərəfdən isə İrəvan və onun ətrafındakı bölgələrin ermənilərə güzəştə gedilməsi ilə bağlı Azərbaycan Xalq Cümhuriyyəti xadimlərinin ünvanına səslənən həqiqətdən uzaq ittihamlara tutarlı cavab verilməsi baxımından hazırkı dövrdə xüsusilə mühüm əhəmiyyətə malikdir.

Osmanlı mənbələrinin təhlili erməni dövlətinin yaradılması məsələsində Osmanlı hakim dairələrində bir sıra fikir ayrılıqlarının olmasını göstərir. Lakin nəticə etibarilə sonda Batumdakı türk nümayəndə heyəti Azərbaycan torpaqları

hesabına ermənilərin lehinə bir sıra ərazi güzəştlərinə gedərək, Cənubi Qafqazda erməni dövlətinin qurulmasını təsdiqlədi. Türk nümayəndə heyətinin rəhbəri Xəlil bəy sədrəzəmə göndərdiyi 30 may tarixli teleqramında bu məsələ ilə bağlı yazırdı: "...Ermənilərlə müsəlmanlar ermənilərə ayrılacaq kanton haqqında razılığa gəldilər. Ermənilər Göyçə gölü ilə bizim yeni hüdud arasındakı dar və dağlıq sahə ilə kifayətləndilər. Ermənilərlə yeni hüdudumuzun qarşı tərəfində Göyçə gölü ilə bizim yeni hüdud arasındakı dar və dağlıq ərazidə təşəkkül etmiş bir hökumət sifətiylə müzakirələr sona çatmışdır..." [12].

Batumdakı Azərbaycan və Ermənistan nümayəndələri arasında da ərazi-sərhəd məsələləri ilə bağlı danışıqlar aparıldı və razılıq əldə edildi ki, Azərbaycan "Aleksandropol quberniyası" hüdudlarında erməni dövlətinin yaradılmasına razıdır. İrəvanı siyasi mərkəz kimi Ermənistana güzəştə getmək məcburiyyətində olan Azərbaycan nümayəndələri şəhəri bu şərtlə güzəştə getməyə razı oldular ki, ermənilər Yelizavetpol quberniyasının bir hissəsinə, yəni Qarabağın dağlıq hissəsinə olan iddialarından imtina etsinlər [16, 169].

Azərbaycan Milli Şurasının 1918-ci il mayın 29-da Həsən bəy Ağayevin sədrliyi ilə keçirilən iclasında İrəvanın Ermənistana güzəştə gedilməsi məsələsi müzakirə olundu. İrəvanın ermənilərə güzəştə gedilməsinin tarixi zərurət, lakin bizim üçün qaçılmaz acı bir həqiqət olduğunun qeyd edildiyi müzakirənin nəticəsi olaraq 28 nəfər Şura üzvündən 16 nəfəri bu təklifin lehinə səs verdi. Bununla da İrəvanın Ermənistana güzəştə gedilməsi məsələsi ermənilərin xeyrinə həll edilmiş oldu [2].

Son nəticə etibarilə, türk tərəfinin istəyi və xeyir-duası ilə İrəvan şəhərinin də daxil olduğu Yeni Bəyazid və Eçmiədzin bölgələrindən ibarət bir Ermənistan dövləti quruldu [4]. Batum müqaviləsinə görə, Ermənistan Respublikası Cənubi Qafqazda 10 min km^2 ərazisi olan bir dövlət oldu. Azərbaycanın əzəli torpağı olan İrəvan şəhəri ətrafında erməni dövlətinin yaradılması məsələsi Osmanlı xarici işlər naziri tərəfindən də razılıqla qarşılandı. Osmanlı Xarici İşlər Nazirliyi tərəfindən Berlin və Vyanadakı Osmanlı səfirləri Hakkı və Hilmi paşalara göndərilən 5 iyun 1918-ci il tarixli şifrəli teleqramlarda da Osmanlı ultimatumunun gürcü, erməni və müsəlmanlar tərəfindən qəbul edilməsi haqqında məlumat verilir və daha sonra bildirilir ki, bizim hüdud ilə göl arasındakı ərazidə erməni kantonu yaradılması haqqında ermənilərlə Azərbaycan Cümhuriyyəti arasında razılıq əldə edildi [11].

Osmanlı və Azərbaycan arxivlərində saxlanılan sənədlərin qarşılıqlı təhlili əsasında İrəvanın ermənilərə güzəştə gedilməsinin obyektiv səbəblərini üzə çıxarmaq mümkündür. Əgər məsələyə Azərbaycanın mövqeyində baxsaq, bu güzəştin yuxarıda qeyd edildiyi kimi, bilavasitə xarici qüvvənin təzyiqi nəticəsində tarixi zərurətdən irəli gəldiyini qeyd edə bilərik. Azərbaycan təsir edən xarici qüvvənin - Osmanlı dövlətinin müvafiq qərar qəbul etməsinin əsas səbəbi isə Osmanlı imperiyasını dünya ictimaiyyətinin gözündən salan "erməni məsələsi"ni həll etmək istəyi olmuşdur. Təbii ki, 1915-ci il hadisələrini soyqırım kimi qələmə verərək, beynəlxalq ictimaiyyətdə türklərin "barbar", "vəhşi"

obrazını yaratmağa və bununla antitürk qüvvələrinin dəstəyini qazanmağa nail olmuş ermənilərin dövlət yaratmalarına imkan verməklə Osmanlı dövləti ona qarşı edilən ittihamları aradan qaldırmaq məqsədi güdürdü.

AXC-Osmanlı münasibətlərini özündə əks etdirən Osmanlı arxiv sənədlərinin araşdırılması Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasətinin bəzi məqamları ilə bağlı xarici və vətən tarixşünaslığında kök salmış səhv mülahizələri aradan qaldırmaq baxımından mühüm əhəmiyyət daşıyır. Tarixşünaslıqda Batum müqaviləsi ilə bağlı mövcud olan hakim fikrə görə, guya Osmanlı dövləti ilə Azərbaycan Xalq Cümhuriyyəti arasında 4 iyun müqaviləsi imzalanandan sonra Batumda olan Azərbaycan nümayəndələri elə həmin gün bu müqavilənin 4-cü maddəsinə istinad edərək yardım üçün Osmanlı dövlətinə müraciət etmişlər [15]. Osmanlı arxiv sənədləri bu fikrin yanlış olduğunu sübut edir. Belə ki, birincisi, Azərbaycan nümayəndələri yardım üçün Osmanlı dövlətinə etdikləri müraciətdə hüquqi cəhətdən mətni hazır olan və paraflanan müqavilənin dördüncü maddəsinə istinad etsələr də, bu müraciət iyunun 4-də deyil, iyunun 1-də edilmişdir. İkincisi, Batumda Azərbaycanı təmsil edən M.H.Hacınski və M.Ə.Rəsulzadə yardım üçün Osmanlı dövlətinə müraciəti birlikdə deyil, ayrı-ayrılıqda ediblər. Lakin M.H.Hacınski Azərbaycanın xarici işlər naziri kimi, M.Ə.Rəsulzadə isə Milli Şuranın sədri kimi müraciət ediblər. Lakin hər iki müraciətin mövzusu təxminən eynidir və Bakı şəhərini ələ keçirən və bütün Bakı vilayətində müsəlman əhalini qırğın, qarət və talanlara məruz qoyan erməni-bolşevik birləşmələrinə qarşı mübarizədə Osmanlı dövlətindən hərbi yardım istəyirlər. Batumdakı Osmanlı heyətinin rəhbəri Xəlil bəy də iyunun 1-də həm Hacınskiyə, həm də Rəsulzadəyə ayrı-ayrılıqda cavab göndərmiş və tezliklə erməni və gürcülərlə müzakirələr başa çatdırılıb Azərbaycana lazımi hərbi qüvvənin göndəriləcəyini bildirmişdir [15].

Batum konfransında Osmanlı imperatorluğu ilə Azərbaycan, Gürcüstan və Ermənistan respublikaları arasında gedən danışıqlar 1918-ci il iyunun 4-də Osmanlı imperatorluğu ilə Azərbaycan Cümhuriyyəti arasında "Dostluq", Osmanlı imperatorluğu ilə Gürcüstan və Ermənistan respublikaları arasında isə "Sülh və Dostluq" müqavilələrinin imzalanması ilə nəticələndi [14].

Qeyd etmək lazımdır ki, hazırda Türkiyə arxivlərində 4 iyun müqavilələrinin bir neçə nüsxəsi mövcud olub, müxtəlif fon kodları adı altında saxlanılır. On bir maddə, iki əlavə və bir müvəqqəti əlavədən ibarət olan 4 iyun müqaviləsinin [1; 3] üzərində imzalar olan ilkin nüsxəsi isə hazırda Başbakanlıq Osmanlı Arxivinin Xariciyyə Siyasi Qisim fon kodu altında dosya 2373, gömlək 4 ünvanında mühafizə olunur[13]. Məhz bu nüsxənin müqavilənin ilkin orijinal nüsxəsi olmasını nəzərə alaraq tədqiqat işində ondan istifadə etməyi məqsədəuyğun hesab etdik.

Xarici ölkə, keçmiş sovet və ondan bəhrələnən müasir rus tarixşünaslığına aid olan bəzi əsərlərdə Batum müqaviləsinin guya talançı xarakter daşıması göstərilərək, Osmanlı imperiyasının Azərbaycanı müstəqil dövlət kimi tanımaması göstərilir [17, 287-288; 18, 69; 19, 127; 20, 113]. Qeyd edək ki,

Türkiyə və Azərbaycan arxivlərində mühafizə edilən Batum müqavilələrinin mətnlərinin ayrı-ayrılıqda araşdırılması bu fikrin məhdud və ideoloji təsirdən qaynaqlanan səhv bir yanaşmanın nəticəsi olduğunu sübut edir. Birincisi, bir-birini müstəqil dövlət kimi tanımayan tərəflərin siyasi, hüquqi və iqtisadi zəmində mehriban qonşuluq barədə müqavilə imzalaması beynəlxalq praktikada qeyri-mümkündür. Təbii ki, Osmanlı dövləti öz niyyətlərini ört-basdır etmək xatirinə belə bu cür praktikadan istifadə edə bilməzdi. Cənubi Qafqaz Seymi ilə Osmanlı dövləti arasında Trabzon danışıqlarına nəzər salsaq, görərik ki, Cənubi Qafqaz Rusiyadan ayrılıb öz müstəqilliyini elan edərək beynəlxalq hüququn subyektinə çevrilməyincə Osmanlı dövləti onunla sülh müqaviləsi imzalamadı və istiqlaliyyətin elan edilməsini əsas şərt kimi irəli sürdü. İkincisi, bir-birini müstəqil dövlət kimi tanımayan tərəflər arasında daimi sülhün və möhkəm dostluğun təsbit edilməsinə ehtiyac olmazdı. Üçüncüsü, beynəlxalq münasibətlər tarixində müqaviləyə girən hər hansı tərəfin, müstəqilliyini tanımayan hər hansı tərəfə yardım göstərməsi təcavüz və işğal kimi qiymətləndirilir. Araşdırmalar göstərir ki, Batum müqaviləsinin ratifikasiya edilməməsi bu kimi fikirlərin ortaya atılmasına səbəb olmuşdur.

AXC-Osmanlı münasibətlərinin xarakteri haqqında qərəzli fikirlərin və dolaşıqlığın yaranmasına Batum müqavilələrinin rus dilinə tərcümə edilərkən yol verilmiş tərcümə xətaları da səbəb olmuşdur. Məsələn, müqavilənin Azərbaycan arxivlərində saxlanan rus dilinə tərcümə edilmiş variantında Azərbaycan və Ermənistan respublikalarının hökumətləri arasında sərhədlərin müəyyən edilməsinə dair protokol imzalanmasını nəzərdə tutan üçüncü maddədə səhvən Azərbaycan, Ermənistan və Gürcüstan arasında sərhədlərin müəyyən edilməsinə dair protokol yazılmışdır [1]. Müqavilənin Osmanlı türkcəsində olan və üzərində tədqiqat apardığımız ilkin variantında üçüncü maddədə Gürcüstanın çəkilmir, yalnız Azərbaycan və Ermənistan respublikaları arasında sərhədlərin müəyyən edilməsinə dair imzalanacaq protokoldan danışılır [13]. Osmanlı imperatorluğu ilə Gürcüstan arasında imzalanan müqavilənin üçüncü maddəsində isə Gürcüstanla Azərbaycan və Ermənistan arasında sərhədlərin müəyyən edilməsinə dair protokoldan söhbət gedir [5; 6].

Müqavilənin türk və Azərbaycan variantlarının uyğunsuzluq nəzərə çarpan hissələrindən birini də doqquzuncu maddə təşkil edir. Müqavilənin türk variantında əksini tapmış doqquzuncu maddədə Azərbaycanın beynəlxalq poçt-teleqraf ittifaqına girməsinə qədər iki ölkə arasında poçt-teleqraf münasibətləri bu müqavilənin təsdiqnamələrinin mübadiləsindən etibarən beynəlxalq ittifaqın poçt-teleqraf konvensiyalarına, sazişlərinə və nizamnaməsinə uyğun olaraq təsis edilməli olması nəzərdə tutulmuşdur. Lakin türk arxivində mühafizə edilən müqavilənin ilkin nüsxəsindən fərqli olaraq, Azərbaycan arxivlərində olan müqavilə nüsxəsinin doqquzuncu maddəsində "bu müqavilənin təsdiqnamələrinin mübadiləsindən etibarən" ifadəsi yer almamış və nəticədə həmin maddənin hüquqi statusuna xələl gəlmişdir. Batum müqavilələri ratifikasiya edilmədiyindən ilkin variantda olan nüsxədə doqquzuncu maddədə əksini tapan müddəalar

həyata keçirilmədən qalmışdır. Çünki, doqquzuncu maddədə əks olunan məsələlərin müqavilənin təsdiqindən sonra qeyd edilən şəkildə həyata keçirilməsi nəzərdə tutulmuşdu, müqavilənin təsdiq edilməməsi bu prosesin həyata keçirilməsini qeyri-mümkün etmişdi.

Qeyd etmək lazımdır ki, müqavilənin rus və türk variantlarının onuncu maddəsində də uyğunsuzluq mövcuddur. Müqavilənin ilkin tük variantında onuncu maddədə Brest-Litovskda Osmanlı dövləti və onun müttəfiqləri ilə Rusiya arasında imzalanan müqavilələrin indiki müqaviləyə zidd olmayan şərtlərinin Türkiyə ilə Azərbaycan arasında qüvvədə qalacağı [13] birmənalı şəkildə qeyd olunsa da, rus dilinə tərcümə olunan variantda, onuncu maddədə "indiki müqaviləyə zidd olmayan" ifadəsi əks olunmamışdır. Sənədin rus dilinə tərcümə edilməsi zamanı yol verilmiş bu kimi səhvlərin yaratdığı hüquqi boşluqlar, çatışmazlıq və müəyyən mənada məntiqsizliklər uzun illər boyu tarixşünaslıqda səhv tendensiyaların özünə yer edərək möhkəmlənməsinə səbəb olmuşdur. Bu kimi halların aradan qaldırılması baxımından müqavilənin türkcə yazılmış ilkin nüsxəsinin tədqiqata cəlb edilməsi məqsədəmüvafiqdir.

Qeyd etmək lazımdır ki, Azərbaycan Xalq Cümhuriyyətinin ilk diplomatik addımlarını özündə əks etdirən Batum müqavilələri mənbəşünaslıq və tarixşünaslıq məsələlərinin həll edilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Buna görə də həmin müqavilələrin orijinalının hansı dildə yazılması və digər tərcümə nüsxələri ilə uyğunluq təşkil edib-etməməsi məsələlərinin araşdırılması diqqət mərkəzində saxlanılmalıdır.

Osmanlı mənbələri üzərində aparılan tədqiqat nəticəsində Osmanlı imperiyası ilə Azərbaycan Xalq Cümhuriyyəti arasında imzalanan Batum müqavilələrinin mətnlərinin Azərbaycan tərəfinin düzəliş təkliflərinə uyğun olaraq türkcə yazılması müəyyən edilmişdir. "Bakı-Batum neft kəməri" və "Cənubi Qafqaz dəmir yolları haqqında" sazişlər isə müvafiq olaraq üçtərəfli və dördtərəfli sazişlər olduğu üçün onların mətnləri həmin dövrlərdə beynəlxalq dil olan fransız dilində yazılmışdı [7; 9]. Sonradan bu müqavilələrin mətninin türk dilinə tərcüməsi həyata keçirilmişdir. Türkiyə Cümhuriyyəti Başbakanlıq Osmanlı Arxivində "Xariciyyə Nəzarəti Hüquq Müşavirliyi İstişarə Odası" fon kodu altında mühafizə olunan sənədlərdən aydın olur ki, "Bakı-Batum neft kəməri" və "Cənubi Qafqaz dəmiryolları haqqında" sazişlərin mətni 1918-ci il avqustun 24-də Osmanlı Xarici İşlər Nazirliyinin Tərcümə Odasında türk dilinə tərcümə olunmuş və avqustun 27-də tərcümə katibi tərəfindən təsdiq edilmişdir [8; 10].

Batum konfransında Azərbaycan Xalq Cümhuriyyəti və Osmanlı imperiyası arasında aparılmış danışıqları və bağlanmış müqavilələri özündə əks etdirən Osmanlı arxiv sənədləri bir sıra mühüm mənbəşünaslıq məsələlərinin həll edilməsi baxımından müstəsna əhəmiyyətə malikdir. İlk növbədə onu qeyd etmək lazımdır ki, 4 iyun müqaviləsinin bağlanmasına qədər olan bir həftəlik dövrdə Azərbaycan-Osmanlı danışıqlarını yalnız bu sənədlər əsasında bərpa etmək mümkündür. İkincisi, türk arxivlərində saxlanan Osmanlı rəsmilərinin mövqelərini özündə əks etdirən teleqramlar Cənubi Qafqazda erməni dövlə-

tinin qurulması məsələsində Osmanlı dövlətinin rolunu müəyyən etmək, azərbaycanlıların İrəvanı güzəştə getmələrinin səbəblərini araşdırmaq və Qafqazda erməni dövlətinin yaranması prosesini işıqlandırmaq baxımından böyük əhəmiyyətə malikdir. Üçüncüsü, Osmanlı və Azərbaycan Xalq Cümhuriyyəti arasında bağlanmış 4 iyun müqavilələrinin ilkin orijinal mənbədən araşdırılması digər nüsxələrdə mövcud olan uyğunsuzluq və məntiqsizliyin aradan qaldırılması istiqamətində mühüm rol oynayır.

MƏNBƏLƏR VƏ ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Dövlət Arxivi (ARDA), f. 894, siy. 2, iş 88, v. 1-3
2. ARDA, f. 970, siy. 1, iş 1, v. 51-52
3. Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsi Siyasi Sənədlər Arxivi, (ARPİİSSA), f. 277, siy. 2, iş 9, v. 9-22
4. Türkiye Cumhuriyeti Genelkurmay Başkanlığı Askeri Tarih ve Stratejik Etüd Arşivi (ATASE), A. 4/3671, Klasör (K.) 2920, Dosya (D.) 16-507, Fihrist (F.) 1-18
5. Türkiyə Cümhuriyyəti Başbakanlık Osmanlı Arşivi (BOA), Hâriciye Nezâreti Hukûk Müşâvirliği İstişâre Odası (HR.HMŞ.İŞO), D. 106, G.8, v. 42, 52-59
6. BOA, HR. HMŞ.İŞO, D. 123, G.67, v. 16-24
7. BOA, HR.HMŞ.İŞO, D. 123, G.74, v. 1
8. BOA, HR.HMŞ.İŞO, D. 123, G.74, v. 2
9. BOA, HR.HMŞ.İŞO, D. 124, G.19, v. 1
10. BOA, HR.HMŞ.İŞO, D. 124, G.19, v. 7
11. BOA, Hariciye Nezâreti Siyâsî Kısım (HR. SYS), D. 2372, G.1, v. 4
12. BOA, HR.SYS, D. 2372, G.3, v. 94
13. BOA, HR. SYS, D. 2373, G.4, v. 3
14. BOA, HR.SYS, D. 2398, G.5, v. 164-166
15. BOA, HR.SYS, D. 2398, G.7, v. 56
16. Qafarov V.V. Türkiyə-Rusiya münasibətlərində Azərbaycan məsələsi. Bakı: Azərnəşr, 2009, 474 s.
17. Suny R. The Baku Commune, 1917-1918: Class and Nationality in the Russian Revolution. Princeton: Princeton University Press, 1972, 444 p.
18. Swietochowski T. Russian Azerbaijan, 1905-1920: The Shaping of National Identity in Moslem Community. Cambridge: Cambridge University Press, 1985, 290 p.
19. Волхонский М., В.Муханов. По следам Азербайджанской Демократической республики. М.: Европа, 2007, 250 с.
20. Мустафазаде Р. Две республики. Азербайджано-российские отношения в 1918-1922 гг. М.: МИК, 2006, 356 с.

ОСМАНСКИЕ АРХИВНЫЕ ДОКУМЕНТЫ КАК ИСТОЧНИК ДЛЯ ИЗУЧЕНИЯ НАЧАЛЬНОГО ПЕРИОДА МЕЖГОСУДАРСТВЕННЫХ ОТНОШЕНИЙ АЗЕРБАЙДЖАНСКОЙ ДЕМОКРАТИЧЕСКОЙ РЕСПУБЛИКИ С ОСМАНСКОЙ ИМПЕРИИ

Р.Я.ГАСЫМОВ

РЕЗЮМЕ

В данной статье на основе Османских архивных материалов исследуется вопросы распад Южнокавказского сейма, формирования Азербайджанской Демократической Республики, осуществления первых дипломатических шагов во время переговоров на

Батумской конференции.

Ключевые слова: Сейм, Батумский договор, Османская империя, Азербайджанская Демократическая Республика

OTTOMAN ARCHIVE DOCUMENTS AS THE SOURCE FOR THE RESEARCH OF THE FIRST INTERSTATE RELATIONS BETWEEN THE OTTOMAN EMPIRE AND THE AZERBAIJAN DEMOCRATIC REPUBLIC

R.Y.GASIMOV

SUMMARY

The article describes the collapse of the South Caucasian Seym, the formation of the Azerbaijan Democratic Republic, negotiations held between Azeri diplomats and Ottoman Empire in Batumi Conference and the first diplomatic steps of the Azerbaijan Democratic Republic on the basis of Ottoman archival materials.

Key words: Seym, treaty of Batumi, the Ottoman Empire, the Azerbaijan Democratic Republic